

■ Məlihə Əzizpur

Məlihə Əzizpur 1979-cu ildə Əhər şəhərində doğulub, Təbrizdə boya-başa çatıb. İlk və orta təhsilini Təbrizdə alıb. 2010-cu ildən Türkiyəyə köçüb, orada Ege Universitetinin "Türk Dünyası Edebiyatları" bölümündə magisrtatura bitirib. Məlihə Əzizpur şairliklə yanaşı, həm də araşdırmaçıdır. Təbrizdə nəşr olan mətbuatın böyük əksəriyyətində elmi-publisistik yazılarla çıxış edib. 2002-ci ildə "Yağmur" adlı ilk şeir kitabı ışıq üzü görüb. Daha sonra "Dəmir sevgi", "Yasaq duyğular", "14 qələm bəzənmiş ay", "Göy gözlü tanrı" adlı şeir topluları və "Ağ gecə" adlı hekayələr toplusu yayımlanıb. " Su pıçıltısı" və "Mənə bir küçə bağışla "adlı iki şeir toplusu isə Bakıda nəşr olunub.

**Təqdim etdi: Pərvanə Məmmədli**

1

Gecə olsaydım!
Zil qaranlıq.
Və sən, bədirlənmiş Ayın müjdəsi.
Gümüş millərinlə
Saçlarını darasaydın
Şam ağaclarının...

Gecə olsaydım!
Gözəl yorğunluq.
Sən, ulduzların sayrışması.
Ürəyim,
Axan bir ulduz axışı...
Uğurlasaydım gözlərini
Geniş bir düşüncə kimi
Dərin bir sual kimi...

Gecə olsaydım!
Sükuta boğulmuş.
Fışqıran bir mahnı olsaydın
Düşüncələrimin qatından.
Yumşaq addımlarla gəlib
oğurlasaydın yalqızlığımı.
Əl ələ gəzsəydik
Dünyanın bütün küçələrini...

* * *

Gecədir!
Duyğularıma səslənirəm
Əfsunlu sözcüklərlə!
Sən,
Sonsuzluğa davam edirsən
Ruhumun dolanbac yollarında.
könlüm axır sənə,
Qeyb olurammram.
Tam içimə qapanıram,
Qapqaranlıq
Yopyorğun
Samsakit bir
Gecə kimi...

2

Mənə bir küçə bağışla!
Tam dənizə açılsın gözləri.
Qağayılar keçsin xəyalından
Səhər-axşam.
Və, uzaqdan gələn gəmilərin səsi ilə
Döyünsün ürəyi...

Mənə bir küçə bağışla!
Yolçuların,
Ayaq səsi ilə oyansın.
Mahnı səsi ilə oynasın.
Və, bir sevda xəyalı ilə
Uyusun...

Mənə bir küçə bağışla!
Gözlərindən,
Ürəyinə
Köçə biləcəyim bir küçə

3

Dolu gedir
Boş qayıdır gəmilər.
Boş gedir
Dolu qayıdır
Gəmilər.
Ürəyimi aparırlar-gətirirlər
Gəmilər.
Və,
Haradasa batmış
Bir balıqçının
Xəyalına dalmış,
Qoca körfəz...

4

Bir Bədirlənmiş ayla bəzənmişdi gecə!
Mübhəm duyğular daşıyırdı içimə
Dənizdən əsən iliq əsinti.
Doğrusu
Qürbət qucmuşdu bütün hücrələrimi
Amma
Bir Bədirlənmiş Ayla bəzənmişdi gecə !
Kiçik dalğalar
Döyüntüləri ilə anladır varlığını
Parıldayırdı mavi dəniz
Tamamlanmış şeirə bənzəyirdi gözlərin
Və mahnılara aparırdı məni anbaan:
" . . . Mən səni sevdim ay ışığında
Könlümü verdim ay ışığında . . . "
Bir Bədirlənmiş Ayla bənzəmişdi gecə !
Özündən getmişdi dünya
Gözəllik yavaş-yavaş pıçıldaşırdı mənimlə
Və mən
Sevməyə başlamışdım səni
Mahnılar kimi
Röyalar kimi
Dualar kimi . . .
Bir Bədirlənmiş Ayla bəzənmişdi gecə!

5

Vətən:
Düşüncəmdir güllələnir
Vətən:
Dilimdir kəsilir
Vətən6
Azadlığımdır zəncirlənir...
Vətən:
Şeirlərimdir kəsilir,
Kitablarımdır odlanır
Mahnılarımdır talanır...
Vətən:
Sürgünlərimdir.
Vətən:
Şəhidlərimdir.
Vətən:
Yaralarımdır...
Vətən...vətən...vətən...
Kərkükdür
Urumçidir
vətən
Yaslı TƏBRİZdir
QARABAĞlayıbdır
Vətən...

6

İçinizdə hər an ad dəyişdirən mikroblar!
Çörəkləri şeytan təri qoxuyan
Siyasət harambazları!
Tarix zibilliklərində sümsünərkən
Görmədinizmi, köpəyə çevrilsəniz də
Bir parça sümüyünüz belə yoxdur?!
Görmədinizmi,
Varlığınız belə yoxluq biçimindədir!
Bu bizik
Tarix yaşlı türk!
Əsirlərin çərçivəsinə sığmayan ƏR
Dustaqlığa sığmayan NƏR!
Söyləyin,
Necə quyruq bulayırsınız
Süfrəmizin başında
Eeey qapımızın itləri?!
Əlbəttə ki, zaman, tərsə geyib başmağını.
Yoxsa, duyardınız
Qurdumuzun səsi necə uzanır
Altaylardan Balkanlara...
Görərdiniz, qartallarımız necə aslan ovlayır!
Göllərimiz, necə nəhəng yaşadır bağrında...
Görərdiniz,
Atlarımız hələ də dənizdən çıxır
Bizim ulu Türküstan çölündə - at belində
Qızıl səhifələri yazıb artırmaq üçün
Qoca tarix kitabına...
Başa düşürük
Bic fəlsəfəniz ölümdən süd əmir...
...
Bu bizik!
TÜRK oğlu TÜRK,
Oğuz xaqan, Alp ər Tunqa, Tomris
Atila, Babək, Atatürk!

* * *

Biz, belimizi bağlamışıq dərdə.
Yəni, gülüb keçirik ağrıya
Bütün dərdlərimizlə hələ də.
Və siz,
Yaxşı bilirsiniz
Necə ölümcül yaralanıbsınız
Zəhərli qəhərimizdən...

* * *

"Çırpınır Qara dəniz
Baxıb TÜRKün bayrağına"...

7

Taraq-taraq...
Yenə də güllələdilər igidi
Bax ondan ayrılan cana
Bir deyil
ondu - on mindi...
Ovucunda nübar topraq
Qoynunda bir yasaq bayraq
İçində bir sınıq mahnı:
"Vətən bağı al-əlvandır..."

* * *

Bura:
AZ
ƏR
BAY
CAN
Dır...

8

Ağalar;
Məclislərə buyurdular.
Ağalara
İki yer verilidi yuxarı başda.
Birisində
PAPAQları əyləşdi
Birisində
SAQQALları...
Özlərinə
Yer qalmadı
Ağaların!

9

Bir gecə;
Yaraların sağalması gecikərkən
Yaslı sükut - yaşlı sükut
qıçqırtıya çevriləcək!
Biz,
Bütün dustaq ulduzlarla
Üzləşəcəyik
Tilisim qaranlıqla,
Və
Güllələrin tuşu ilə
Keçəcəyik
Şəhidlik keçidindən...

* * *

Sabah;
Əkilən dar ağaclarından
GÜNƏŞ dərəcək
Uşaqlar...

10

Sizin qarğalarınız,
Siçan ovunu fikirləşir
Bizim qartallarımız,
Aslan ovunu.

11

Dolu gedir, boş qayıdır gəmilər.
Boş gedib, dolu qayıdır gəmilər.
Ürəyimi aparırlar - gətirirlər gəmilər.
Və, haradasa batmış
Bir balıqçının xəyalına dalmış
Qoca körfəz . . .

12

Səni unutmalıyam bilirsən mi?!
Necə ki sevməyə məcbur idim nə vaxtsa
Və adını siqara dumanı ilə yazmışdım havaya.
halbuki, can dediyin nəfəslər
Qat-qat yara bağlamışdılar ciyərlərimdə...

Səni unutmalıyam
Necə ki, sevməyə məcbur idim nə vaxtsa
Və insan maskalı yarasalar
Gülə-gülə qanımı sorurdular son damlaya qədər.
Mən isə onlara sevgi göstərməkdən
Bezmişdim artıq!

Səni unutmaq zorundayım,
O üzdən örtülmüş qapıya bənzəyirəm
Ortamızda çəkilən divarda
Və bir sərçə qanadından törəyən
Lələk belə
Meydan oxuyur məni çökdürməyə.

Səni unutmaq zorundayım
Bilirsən mi?!

13

Gözləri;
Nəhəngləri ölmüş dəniz.
Ürəyi; Yuvası odlanmış göyərçin . . .
Siqareti, damağında olardı həmişə.
Torpağa yoldaş,
Çörəyə qardaş!
Kimsə qonaq çağırmazdı onu
Əziz günlərdə.
Görüşünə kimsə gəlməzdi,
Bayramlarda.
Təvəkkül qoxuyardı səhərləri.
Şükürlə boyanardı gün batanları.
Əlləri tikanlı - qabarlı.
Saçları pırtlaşıq - torpaqlı...
Beli bir az bükülü
Və yerişi yorğun...

* * *

İndicə çıxardılar qoca fəhləni
Uçulmuş divarın altından...

14

O yana, payız gəldi.
Qarğalar doluşdu küçəmizin yuxusuna.
Və quruyub töküldü
Bütün sarmaşıq butaları...
Bilirəm;
Səhərlərim alma qoxumayacaq daha
Və quşların xatirəsi
Kövrəldəcək məni...